*Nərgiz Mustafazadə. Qarabağın yetirməsi Qəmər Bəyim Şeyda //Elmi əsərlər,2021,1(12), s.63-68.*

UOT 821.512.162

**Nərgiz Mustafazadə,**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç.26.*
e-mail: nergiz.mustafazada@gmail.com

# QARABAĞIN YETİRMƏSİ QƏMƏR BƏYİM ŞEYDA

**Açar sözlər:** *Qəmər bəyim Şeyda, şairə, ictimai fəaliyyət, arxiv.*

**Giriş**. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda XIX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Qəmər bəyim Şeydanın şəxsi arxivi qorunub saxlanılır. Burada onun haqqında yazılan xatirələr, şairənin əsərlərinin əlyazmaları, məqalələr, ailə üzvləri tərəfindən yazılan məktublar, ictimai fəaliyyəti ilə əlaqədar olan materiallar mövcuddur.

**Əsas mətn.** XIX əsr Azərbaycan poeziyasında özünəməxsus yer tutan Qəmər bəyim Şeyda 1881-ci ildə incəsənət və mədəniyyətin beşiyi olan Şuşada dünyaya gəlmişdir. Qəmər bəyim Şeyda Pənah xanın nəslindəndir. O, kiçik yaşlarında atası Ata xanı itirmiş və dayısının himayəsində yaşamışdır. Ədəbiyyatşünas Bəxtiyar Balakişiyev yazır: "Qəmər bəyim dünyaya gələndə onun beşiyinə qara bağlayıblar. Çünki üç bacıdan sonra onun dünyaya gəlməsini heç kim istəmirdi" [1, 12]. Bir çox mənbələrdə şairənin böyük qardaşı Məhəmməd ağanın onun tərbiyəsi və təhsili ilə məşğul olduğu qeyd olunmuşdur. Lakin şairənin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda 28 saylı fondda saxlanılan arxivində Əzizə Cəfərzadəyə ünvanlanmış məktubu oxuduqda daha dəqiq qənaətə gəlmək mümkündür. Qəmər bəyimin qızı Əntiqə Abdullayeva tərəfindən anasının həyatına aid yazılmış qısa məktubda onun böyük qardaşının deyil, dayısının himayəsində yaşayaraq təhsil alması haqqında məlumat verilmişdir. Qəmər bəyimin dayısı onun təhsilinə xüsusi diqqət yetirmiş, onu Qafqazın ictimai-mədəni mərkəzlərindən biri olan Şuşadakı Qızlar gimnaziyasında oxutdurmuşdur. Qəmər bəyim gimnaziyada oxuyarkən Şərq mədəniyyəti ilə, Nizami, Füzuli, Nəsiminin sənət dünyaları ilə tanış olmuş və onları dərindən öyrənmişdir.

1872-ci ildə Şuşa ziyalılarının təşəbbüsü, Xurşidbanu Natəvanın köməkliyi və maddi təminatı ilə Şuşada "Məclisi-üns" ("Dostluq məclisi") adlı ədəbi məclis təşkil edilmişdir. Şuşa ziyalılarının həvəslə toplanıb şeirləşdiyi bu məclisin rəhbərliyini və bütün xərclərini Natəvan öz öhdəsinə götürmüşdü. Məclisə şairlərlə bərabər musiqi biliciləri və ifaçıları da toplaşır, şeirlə musiqinin qarşılıqlı əlaqəsi barədə ədəbi, elmi söhbətlər aparırdılar. Qəmər bəyim Xurşidbanu Natəvanın başçılıq etdiyi "Məclisi-üns"ə tez-tez gələr, şeir və qəzəllər oxuyarmış.

"Tanınmış şairə Xurşidbanu Natəvan onu özü ilə "Məclisi-üns"ün yığıncaqlarına aparır və məclisin üzvlərinə təqdim edərək deyir:

"Bu gənc qızın adı Qəmərdir. Yaxın qohumumdur. Şeirə marağı isə hədsizdir. İcazə versəniz, şeirlərindən bir neçəsini oxuyar. Xoşunuza gəlsə, sıralarımıza qəbul edərik. Ancaq qohumum olduğu üçün üzgörənlik etməyin. Qəmər bəyim uşaq utancaqlığı və əsilzadə ədəb-ərkanı ilə irəli çıxaraq xüsusi ahənglə şeir oxuyur. Məclisin ağsaqqalı Mirzə Sadıq Piran ondan daha bir şeir oxumasını rica edir. O, qoca-

man şairin xahişini yerinə yetirir. Sonra keçib yerində əyləşir. Xurşidbanu Natəvan üzünü Mirzə Sadığa tutub deyir:
*- Mirzə, nə deyirsən, xoşuna gəldimi? Bu qızcığazdan şair olarmı?-*
*- Sizin bu qohumunuz gerçək şair imiş ki.*
*misralarında məna çalarları var.*

Nitqi, tələffüzü öz yerindədir. Böyük inamla demək olar ki, Qəmər bəyim sizin və bizim davamçımız olacaq” [2, s.15].

Xan qızı məclis üzvlərinə ona ədəbi təxəllüs də verdiyini bildirərək deyir ki, siz özünüz də gördünüz ki, Qəmər bəyim şeir söyləyərkən şeyda bülbül kimi necə ötürdü. Ona ədəbi təxəllüs vermişəm. Şeyda, Qəmər bəyim Şeyda. Bu ədəbi mühit Qəmər bəyimin şairə kimi formalaşmasında böyük rol oynamışdır.

Qəmər bəyim Şeydanın şəxsi arxivində qızı Əntiqə Abdullayeva tərəfindən yazılmış məktubda isə deyilir ki, anam səkkiz yaşında olarkən Xurşidbanu Natəvanla məktublaşmış, ona bir qəzəl yazmış, Natəvan isə cavab olaraq öz qəzəlində ona “Şeyda” ləqəbi vermişdir [3, s.1].

Qəmər bəyim Şeyda gimnaziyada oxuduğu müddətdə Nəcəf bəy Vəzirovun nəslindən olan Sadıq bəylə nişanlanmışdır. Lakin nişanlı olduğu müddətdə dayısı onun nişanını qaytarıb xan ailəsindən olan bir oğlana ərə vermək istəmişdir. Qəmər bəyim isə öz məhəbbətinə sadiq qalaraq, nişanlısına qoşulub evdən getmişdir. Bu izdivacdan onların altı övladı olmuşdur: Bahadur bəy, Nadir bəy, Həmidə xanım, Əntiqə xanım, Sənubər xanım və Leyla xanım. Leyla xanım on beş yaşında vəfat etmişdir. Ağır sarsıntı keçirən Qəmər bəyim Şeyda Leylanın şəninə qəzəl yazır.

Şairə qızı Leylaya yazdığı qəzəlin bir neçə beytini Bərdədəki İmamzadə həyətinin baş daşına həkk etdirir:

Olubdu sərv qədim, ey gülüm, kaman sənsiz,
Misali-lalə əcəl bağrım oldu qan sənsiz.

Şikəstə könlüm açılmaz və nə üzüm gülməz,
Gözümdə tirəvü tar oldu bu cahan sənsiz.

Düşəndə bərrü biyabanə mən də Məcnun tək,
Deyillər Leylisi ölüb, eyləyir fəğan sənsiz.

Əgərçi gəlməyəsən can verən zamanimdə,
Görünməsən gözümə, çıxmaz onda can sənsiz.

Gecə səbahə kimi yatmaram, yuxum gəlməz,
Keçirdirəm günümü, ey gülüm, yaman sənsiz.
Deyillə qorxuludur bu səfər gedən gəlməz,
Gözüm yolunda qalıb ağlaram nihan sənsiz [4, s. 134].

Şairənin həyat yoldaşı Sadıq bəy Qarabağda müəllim işləmiş, Qəmər bəyim isə evdar qadın olmuşdur. Ailə 1924-cü ildə Qarabağda olan mülklərini könüllü surətdə

hökumətin ixtiyarına verib Bakıya köçmüşdür. Sadıq bəy sonralar Zaqatala rayonunda

xalq hakimi işləmiş, 1928-cı ildə isə vəfat etmişdir. Həmin il Naxçıvanda işləyən böyük oğlu Qəmər bəyimi öz yanına aparmışdır. Bu illər ərzində Qəmər bəyim Naxçıvanda mövhümatın hökm sürdüyü dövrdə qadınlar arasında iş aparan şöbənin müdiri vəzifəsində işləmiş, qadınların savad kurslarına cəlb etməkdə və çadralarını atmaqda xeyli iş görmüşdür.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Qəmər bəyim Şeydanın şəxsi arxivindəki saxlanılan sənədlərə nəzər saldıqda, onun neçənci illər və hansı sahələrdə fəaliyyət göstərdiyini öyrənmək mümkündür. Sənədlər içərisində qəbz, etibarnamə, üzvlük biletləri, nümayəndə vərəqələri, üzvlük haqqında hesab kitabçaları, şəhadətnamə, təliqələr, dəvətnamə, vəsiqələr, arayış, mandatlar, ərizələr, üzvlük dəftərçəsi, haqq-hesab dəftərçəsi vardır. Qəmər bəyimin şəxsi arxivində 1929-cu il Təyyarə və kimya müdafiə cəmiyyətinin üzvü, 1930-cu ildə Həmkarlar ittifaqının üzvü, 1930-cu ildə "Azərbaycan Sənaye Kooperativ ittifaqı"nın üzvü, 1930-cu ildə AK(b)F Mərkəzi Komitəsinin təbliğat və kütləvi kompaniyalar şöbəsinin nümayəndəsi olduğunu təsdiq edən sənədlər mövcuddur. Eyni zamanda onun 1930-cu il seçki kompaniyasını səfərbərliyə almaq üçün Ordubadın Biləv kəndinə göndərilməsi ilə bağlı şəhadətnamə, həmin ildə Q.Vəzirovanın seçkiləri bitirib təhvil alması haqqında təliqə və digər sənədlər də vardır. Arxivdəki sənədlər Qəmər Vəzirovanın 1928-ci ildə Baş Noraşen Dairə İcraiyyə Komitəsi yanında qadınlar müvəkkili, 1929-cu ildə Naxçıvan şəhərində toxuculuq artelində müdir, 1930-cu ildə Ordubad corab artelində heyət idarəsinin sədri vəzifələrində çalışdığını deməyə əsas verir.

Həmçinin qızı Əntiqə Abdullayevanın Əzizə Cəfərzadəyə yazdığı məktubda Q.Vəzirovanın 1926-1930-cu illərdə Naxçıvanda, Ordubadda qadınlar arasında iş aparan şöbənin müdiri olduğu yazılır. O bildirir ki, Ordubadda corab artelini anam açdırmış və bütün qadınları artelə cəlb etmişdir. 1930-1932-ci illər ərzində isə Bakıda (keçmiş Bazarnı) indiki Azərbaycan küçəsində yerləşən corab artelində müdir müavini vəzifəsində işləmişdir [3, s.1].

1928-1930-cu illərdə onun müxtəlif idarə və müəssisələrdə xidmət etməsi, eyni zamanda digər təşkilatlar tərəfindən bir çox ictimai işlərə cəlb olunaraq, verilən vəzifələri aktiv və layiqli şəkildə yerinə yetirməsi haqqında vəsiqələr də mövcuddur.

1931-ci ildə qızı Həmidənin dəvəti ilə Qarabağa gəlir. Qəmər bəyim doğma torpağa olduqca bağlı və vətənpərvər qadın idi. O elə bil son günlərini yaşadığını hiss edir, Qarabağı qarış-qarış gəzib dolaşdı.

Dərin zəkaya, geniş məlumata sahib Qəmər bəyimin yaradıcıllığı çoxşaxəlidir. Güman etmək olar ki, onun zəngin bədii irsi olmuşdur. Lakin çox təəssüf onun yaradıcılığından bizə çox az nümunə gəlib çatmışdır. Qəmər bəyim Şeydanın şəxsi fondunda onun ancaq bir qəzəli və "Zülmün daşqını" adlı faciəsi vardır. Əntiqə Abdullayevanın Əzizə Cəfərzadəyə ünvanlanan məktubunda bu haqda məlumat verilir. Məktubda yazılır ki, əfsuslar olsun mən kiçik olduğum üçün onun nə əsəri, nə də şeirləri mənim əlimə düşməmişdir və o vaxtı mənim on üç yaşım olardı. Qəmər bəyimin qalan materiallarının böyük qızı Sənubərdə olduğu deyilir. Əntiqə xanım yazır ki, Sənubərin yoldaşı şair Əkbər Məftundur və bacım vəfat edəndə anamın materiallarını ondan tələb etdim, lakin o vermədi. Əntiqə xanım məlumat verir ki, anam

əlində bir əsər yazırdı, amma əsərin adı yadımda deyil. Əsərdə Qarabağda olan bəzi xanlıqlardan, onların və İbrahim xanın zülmkarlığından bəhs olunur. Çox güman ntiqə xanımın bəhs etdiyi əsər şairənin "Zülmün daşqını" adlı faciəsidir [3, s.1].

Qəmər bəyim Şeyda görkəmli şair Fatma xanım Kəminə, Ziba xanım Ləli ilə yaxınlıq etmişdir. Ziba xanım "Pərişan eyləsəm zülfi-pərişanı ağam canı" qəzəlini yazır və Qəmər bəyim Şeydaya göndərir. Qəmər bəyim Şeyda Ziba xanım Ləliyə: "Dağıtsam hər tərəf zülfi-çəmənsanı, ağan canı" rədifli qəzəllə cavab verir:

Dağıtsam hər tərəf zülfi-simnanı, ağan canı,
Giriftar eylərəm sən kimi Zibanı, ağan canı!

Əgər olsan gözəllikdə bərabər mahi-tabana,
Sənə xurşid olan ruyim olar mane, ağan canı!

Sənin tək hər büti-ziba çalışsa, sayəmə çatmaz,
Camalım Yusifi-Misri edib fani, ağan canı!

Açılsam gər tutar qovğa bu dünyanı, ağan canı!

Lətafət mülkünün sultanıyam, sən kimi zibalar
Kənizi-mətbəximdir, et tamaşanı, ağan canı!

Ləbi şəkər, sözü şirin bu Şeyda tək hərifin var,
Əgər mümkün ola tərk et, bu sövdanı, ağan canı!

Lakin Qəmər bəyim Şeydanın şəxsi fondunda saxlanılan qəzəlin çap variantında sonda daha bir beyt də yazılmışdır:

Məni ki, görməmisən əndəlibi-şeydayam,
Özüm də xanzadayam bir gülü hüveydayam.

Fatma xanım Kəminə Ziba xanım Ləli və Qəmər bəyim Şeydanın qəzəl deyişməsinə "Pərişan etmişəm zülfi-pərişanı, ağan canı" nəzirəsi ilə yekun vurmuşdur.

Bu qəzələ "Azərbaycan aşıq və şair qadınları" kitabında 1974-cü ildə, "Azərbaycan qəzəlləri" kitabında isə 1991-ci ildə rast gəlinir. Başqa bir mənbədə qəzəlin 1962-ci ildə çap üzünün köçürüldüyü yazılmışdır [5, s.18].

Qəmər bəyimin dövrümüzə qədər gəlib çatan və əlimizdə olan ikinci əsəri isə "Zülmün daşqını" adlı faciəsidir. Altı pərdədən ibarət dram əsəri 1918-ci ildə qələmə alınmışdır. Əsərin dili səlis, süjeti maraqlıdır. Qarabağda baş verən hadisə xalqın həyat tərzi, ictimai şüuru, psixologiyası barədə aydın şəkildə məlumat verir.

Əsərin məzmunu belədir ki, gənc Həsənəli yoxsul olsa da, həmkəndlisi Çıraq bəyin qızı Nərgizi sevir. Lakin Çıraq bəy qızını kəndin qoçusu Heydər bəyə vermək istəyir. Qanunsuzluq və özbaşınalığın hökm sürdüyü bu kənddə qoçu Heydər bəy istədiyini edir. Çıraq bəyin qəflətən vəfat etməsindən sonra axund Nərgizin kəbinini Həsənəliyə kəsir. Bu hadisədən sonra əsərdə vəziyyət daha da gərginləşir. Heydər bəy

Əsəd adlı kəndlini öldürərək günahı Həsənəlinin üstünə atır. Həsənəlini Sibirə sürgün elətdirən Heydər bəy arvadı və oğlanlarının narazılığına baxmayaraq, Nərgizlə yenidən evlənmək istəyir. Vaxt yetişir və Həsənəli evinə qayıdır. Lakin o bilmir ki, bu müddət ərzində onun oğlu olmuş və daim yolunu gözləyən anasının gözləri tutulmuşdur. Həsənəlinin qayıdışı Heydər bəyi özündən çıxardır və o, Həsənəlini, onun üç yaşlı oğlunu güllələyir. Oğlunun və nəvəsinin bu faciəsinə Pəri arvadın ürəyi dözməyib ölür. Çaşqın halda qalmış Nərgiz daha yaşamağın mənasız olduğunu görüb özünü xəncərlə vurur. Əsərin sonu bolşeviklərin bu vilayətə gəlişi ilə tamamlanır.

"Zülmün daşqını" əsəri 1918-ci ildə qələmə alınsa da, baş verən hadisələr bu gün üçün də aktualdır. Qəmər bəyim Şeydanın bu əsərində ümidlərin qırılması, haqsızlığın hökm sürməsi, şərin xeyir üzərində qələbə çalması və cəmiyyətdə baş verən faciələr bir ailənin fonunda öz əksini tapmışdır. Şairənin "Zülmün daşqını" faciəsi heç bir yerdə nəşr olunmamışdır.

Şairənin vəfat tarixi və hansı səbəbdən dünyasını dəyişməsi şəxsi arxivdə saxlanılan sənəd əsasında müəyyənləşdirilmişdir. Bu sənəd şairənin ağ-qara fonda tək şəklidir. Fotoda Qəmər bəyim Şeyda milli geyimdə əyləşmişdir. Şəklin arxasında rus dilində qeydlər vardır. Əlyazısı onun oğlu tərəfindən yazılmışdır. Bu qeydlərdən məlum olur ki, Qəmər bəyim Şeyda 15 aprel 1933-cü ildə Bakıda bağırsaq dolaşmasından vəfat etmişdir.

**Nəticə.** Qəmər bəyim Şeydanın övladları şairənin çoxlu əsərləri olduğunu söyləsə də, həmin əsərlərin taleyi haqqında heç bir məlumat yoxdur. Şairənin ilk tədqiqatçısı professor Əzizə Cəfərzadə yazır ki, təəssüflər olsun ki, şairənin başqa əsərləri, xüsusən də lirikası bizə gəlib çatmamışdır. Qəmər bəyim Şeydanın həyat və yaradıcılığının dərin araşdırılması və ədəbi irsinin toplanması bu gün üçün mühüm əhəmiyyət kəsb edir.

**Ədəbiyyat:**

1.Balakişiyev B. Lətafət mülkünün sultanı /B.Balakişiyev //"Ədəbiyyat və incəsənət" qəz., 1994, 10 iyun.
2.Fərəcov S. Şuşalı Qəmər bəyim Şeyda /S.Fərəcov //"Mədəniyyət" qəz., 2017, 29 dekabr.
3.Abdullayeva Ə. Məktub. AMEA ƏYİ, f.28, sax. vah. 20.
4.Zeynalov A. Qəmər bəyim Şeyda Qarabağı /A.Zeynalov //"Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri" jur., 2005, №13, s.130.
5.Gülzar. Qəmər bəyim Şeyda /Gülzar //"Elm və həyat" jur., 1989, №3, s.18.
6.Cəfərzadə Ə. Azərbaycan aşıq şair və qadınları /Ə.Cəfərzadə. Bakı: "Gənclik", 1974.
7.Nuru oğlu M. Azərbaycan qəzəlləri /Nuru oğlu M. Bakı: "Azərbaycan Dövlət nəşriyyatı", 1991.

***Мустафазаде Наргиз***

## ГАМАР БЕЙИМ ШЕЙДА РОДОМ ИЗ КАРАБАХА

**Резюме**

Гамар бейим Шейда, представитель азербайджанской поэзии XIX века, родилась в 1881 году в городе Шуша. Гамар бейим Шейда – является потомком Панах хана.

В Институте рукописей имени Мухаммеда Физули НАНА хранится личный архив видного представителя азербайджанской поэзии Гамар бейим Шейды. Поэтесса имела богатое творческое наследие, но мы получили очень мало образцов ее творчества. В личном фонде Гамар бейим Шейды только одна газель и трагедия под названием «Потоп угнетения». Сегодня большое значение имеет изучение жизни и творчества поэтессы, собраний её литературного наследия.

**Ключевые слова:** *Гамар бейим Шейда, поэтесса, общественная деятельность, архив.*

***Mustafazadeh Nargiz***

## ORIGINALLY FROM KARABGH GAMAR BEYIM SHEIDA

### Summary

Gamar beyim Sheida, a representative of Azerbaijani poetry of the 19th century, was born in 1881 in the city of Shusha. Gamar bayim Sheyda is a descendant of Panah khan. The Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS keeps the personal archive of the prominent representative of Azerbaijani poetry Gamar bayim Sheyda. The poetess had a rich artistic heritage, but we have received very few examples of her work. In the personal fund of Gamar bayim Sheyda has only one ghazal and a tragedy called " Flood of oppression ". Today, the study of the life and work of the poetess, a collection of her literary heritage, are of great importance.

**Key words:** *Gamar beyim Sheida, poetess, public activity, archive.*

*Redaksiyaya daxil olma tarixi: 19.04.2021*
*Çapa qəbul olunma tarixi: 07.05.2021*

*Filologiya elmləri doktoru Nailə Səmədova tərəfindən çapa tövsiyə olunmuşdur.*